* Употреблено в VI сказании. В Нахчыване это слово обозначает "запрет, воспрещение".

YAS GEYİMLƏRİ*

*MOURNING PARTY CLOTHES**

*ТРАУРНЫЕ ОДЕЖДЫ**



* II, IV, XII boylarda işlənmişdir. Mərhumun ailəsi qara paltar geyərdi. Digər qohumları da tünd rəngdə geyərdilər. Mərhum cavan olduqda onun arvadının başına qara yaylıq salırdılar. El arasında "Qara yaylıq qalasan"ifadəsi bununla bağlıdır.

* Used in the II, IV, XII boys. The deceased`s relatives always wear black clothes. The other relatives` also put on deep black clothes. If the deceased was young his wife have to wear black shawl. The expression of "If you put on black shawl" exist in Nakhchivan is connected with this.

* Употреблено в II, IV, XII сказаниях. Существовал обычай одеяния членов семьи умершего в черный цвет, других близких – в темный цвет. Если умерший был молодым, то его жена надевала на голову чёрный платок. Такие выражения как "Чтоб ты была при чёрном платке" связано с этим обычаем.

YASTIK*

*PILLOW**

*ПОДУШКА**



* III, V, XI boylarda işlənmişdir. Naxçıvanda da yatan zaman başın altına qoyulan əşya anlamındadır.


* Used in the III, V, XI boys. It is in the meaning of thing which you can lay under your head while sleeping in Nakhchivan.

* Употреблено в III, V , XI сказаниях. В Нахчыване имеется в виду утварь, которая используется в качестве подкладки под голову во время сна.

YATA-YATA YANIMIZ AĞRIDI, DURA-DURA BELİMİZ QURUDU*

*OUR FLANK IS ACHED FOR SLEEPING AND WAIST IS WIZEN FOR STANDING**

*ОТ ДОЛГОГО ЛЕЖАНИЯ ЗАБОЛЕЛ НАШ БОК, ОТ ДОЛГОГО СТОЯНИЯ ИССОХ НАШ СТАН**



* II boyda işlənmişdir. Naxçıvanda "Yata-yata yanımız yara oldu, dura-dura belimiz qurudu" ifadələri vardır.

* Used in the II boy. The expressions of "Our flank is ached for sleeping and waist is wizen for standing" exist in Nakhchivan.

* Употреблено во II сказании. В Нахчыване подобное выражение используется в том случае, когда человеку надоедает безделье.

YAŞMAQ, YAŞMAX*

*YASHMAK**

*ЯШМАГ, ЯШМАХ**



* Müqəddimədə və III boyda yaşınmaq, gizlənmək mənasında işlənmişdir. Qadınlar yaşınmaq üçün üzünün burnunun ucundan aşağı hissəsini örtür. Bəzi kəndlərdə yaşmaq vurmaq kimi də işlədilir.


* Used in preface and III boys in the meaning of to veil. The women cover and hide their face till the tip of their nose with veil. In Nakhchivan it is used as to veil meaning.

* Во вступлении и в III сказании слово употреблено в значении "спрятаться яшмаком". Это значит, чтобы спрятаться, женщины закрывают нижнюю часть лица концом головного платка. В некоторых сёлах употребляется в форме "прикрепить яшмак".

YƏXNİ*

*YAKHNI**

*ЕХНИ**



* I, VII boylarda işlənmişdir. Naxçıvanda soyutma ət xörəyi anlamına, yəxnikeş və ya yaxınkeş qab adlarına rast gəlinir.

* Used in the I, VII boys. A cool meat meal or the words of yakhnikesh, yakhinkesh are exist in Nakhchivan.

* Употреблено I, VII сказаниях. В Нахчыване под этим словом имеется в виду "соютма" (охлаждённое варёное мясо), "ехникеш" или "яхникеш" - посуда для изготовления и хранения этого блюда.

YORĞAN*

*BLANKET**

*ОДЕЯЛО (СТЁГАНОЕ)**



* VI boyda işlənmişdir. Naxçıvanda yataq dəstinə aid əşya mənasındadır.

* Used in the VI boy. In Nakhchivan it is a thing belong to bedding.

* Употреблено в VI сказании. В Нахчыване этим словом обозначается постельная принадлежность для покрывания тела.

YORTMAQ*

*YORTMAG (TROT)**

*ЁРТМАГ (БЫСТРО СКАКАТЬ)**



* II boyda işlənmişdir. Naxçıvanda atın sürətlə getməsi, atı çapmaq anlamındadır.


* Used in the II boy. In Nakhchivan it is in the meaning of the trotting of the horse.

* Употреблено во II сказании. В Нахчыване имеется в виду "быстро скакать на коне" и "пустить лошадь галопом".

YURD*

*LAND**

*ОЧАГ**



* I, II, VII boylarda "məkan", "yurd", "oba" kimi mənalarda işlənmişdir. Naxçıvanda da eyni anlami bildirir.

* Used in the I, II, VII boys in the meaning of "place", "land", "hamlet". As it yes in Nakhchivan.

* Употреблено в I, II, VII сказаниях в значении "место", "очаг, родина" или "поселение". В Нахчыване слово "юрд" употребляется в том же смысле.

ÜZÜK*

*RING**

*КОЛЬЦО**



* III, VIII boylarda işlənmişdir. Naxçıvanda həm kişi, həm də qadınların barmaqda istifadə etdiyi bəzək növüdür.


* Used in the III, VIII boys. In Nakhchivan it is an adornment for men and women.

* Употреблено во III,VIII сказаниях. В Нахчыване - украшение, которое надевают на пальцы представители обоих полов.

ZİNƏT*

*ADORNMENT**

*УКРАШЕНИЕ**



* VI boyda bəzək mənasında işlənmişdir. Naxçıvanda da eyni anlamda istifadə olunur.

* Used in the VI boy in the meaning of furnish, adornment. It is used in the same meaning in Nakhchivan.

* Употреблено в VI сказании в значении "предметы украшения". В Нахчыване это слово носит тот же смысл.

"KİTABİ-DƏDƏ QORQUD" DASTANI VƏ ONUN NAXÇIVANLA BAĞLILIĞI

Dastan yaradıcılığı dünya ədəbiyyatında ayrı-ayrı xalqların müxtəlif tarixi dövrlərdə ədəbi-bədii, ictimai-siyasi düşüncəsini əks etdirən şifahi yaradıcılıq sahələrindən biridir. Azərbaycan oğuz türklərinin yaratdığı "Kitabi-Dədə Qorqud" dastanı dünya ədəbiyyatında özünəməxsus yer tutur. Xalqımızın həyatını, məişətini, adət və ənənələrini özündə əks etdirən, türk dünyasının qədim mədəniyyət abidələrindən, bədii və fəlsəfi təfəkkürümüzün ən nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" dastanı xüsusi maraq doğurmuşdu. Elə buna görə də alman şərqşünası Fridrix Fon Dits tərəfindən 1815-ci ildə aşkar edildiyi vaxtdan bu günə qədər dastana olan maraq azalmamış, dünyanın çox məşhur alimləri tərəfindən buna dəfələrlə müraciət edilmişdir.

"Kitabi-Dədə Qorqud" oğuz türklərinin dastanıdır. Dastanın ilk mötəbər tədqiqatçılarından V.V.Bartold onun Qafqaz mühitində yarandığını qeyd edir. "Kitabi-Dədə Qorqud"un mükəmməl nəşrini çap etdirən böyük türk alimi O.Ş.Gökyay "Drezden" nüsxəsində açıq olaraq "Azərbaycan şivəsi özəllikləri gözə çarpmaqdadır" - deyir. Fuad Köprülü, Məhərrəm Ergin kimi nüfuzlu qorqudşünasların, habelə V.V.Bartold, V.M.Jirmunski, A.H.Kononov, A.Y.Yakubovski kimi rus türkoloqlarının, təbii ki, tanınmış Azərbaycan alimlərinin (H.Araslı, M.H.Təhmasib, Ə.Sultanlı, Ə.Dəmirçizadə, F.Zeynalov, S.Əlizadə, T.Hacıyev, S.Babayev, K.Vəliyev, Ş.Cəmşidov, E.Əlibəyzadə, Ə.Fərzəli və b.) dəfələrlə təsdiq etdikləri kimi, "Kitabi-Dədə Qorqud" dastanı dil xüsusiyyətləri, cərəyan edən hadisələrin coğrafi məkanı baxımından daha çox Azərbaycanla bağlıdır. Bununla əlaqədar Ümummilli lider, böyük dövlət xadimi Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar keçirilən Dövlət Komissiyasının



Naxçıvan şəhərində Dədə Qorqud abidəsi
Dada Gorgud monument in Nakhchivan city
Памятник Деде Горгуду в городе Нахчыване

iclasında demişdir: **"Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir".**

"Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan görkəmli dövlət xadimi Heydər Əliyev dastanın dünya miqyasında təbliği və Azərbaycanda adının əbədiləşdirilməsi, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında" 20 aprel 1997-ci ildə xüsusi Fərman imzalamışdır. Bu Fərman əsasında həyata keçirilmiş genişmiqyaslı tədbirlər sözün böyük mənasında, "Dədə Qorqud" dastanının yenidən doğuluşu və əbədiyyət qazanması hadisəsinə çevrilmişdir. Həmin tarixi Fərmandan sonra Dədə Qorqudun adının Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında əbədiləşdirilməsi sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. İki cildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyasının, onlarla kitab və monoqrafiyaların nəşri, beynəlxalq və respublika səviyyəli kollokvium, konfrans və simpoziumların keçirilməsi, dünyanın tanınmış qorqudşünas alimlərinin Azərbaycana gələrək keçirilən tədbirlərdə iştirak etmələri, Dastanın yubileyinin YUNESKO səviyyəsində qeyd olunması 1300 illik yubileyin yüksək səviyyəsindən xəbər verirdi.



Altun bulaq
Altun bulag
Источник Алтун булаг


Naxçıvan şəhərində 1999-cu ildə Dədə Qorqudun abidəsinin ucaldılması, Naxçıvanda və Vanda beynəlxalq simpoziumların keçirilməsi, simpoziumda elm adamları ilə birgə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və dövlət nümayəndələrinin iştirakı bu işə nə qədər böyük əhəmiyyət verildiyini bir daha göstərirdi. Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan şəhərindəki Dədə Qorqud abidəsini ziyarət etməsi "Kitabi-Dədə Qorqud" dastanının, onun qəhrəmanlarının Azərbaycan Respublikası üçün nə qədər önəmli olduğunun bariz ifadəsidir.

Ulu öndərimizin tarixi və mədəni irsimizə dövlət qayğısı siyasətini

davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Dədə Qorqudun adının əbədiləşdirilməsi ilə bağlı xaricdə və ölkə miqyasında müxtəlif tədbirlər keçirilmişdir. Prezident İlham Əliyevin 2004-cü ildə Belçikanın paytaxtı Brüssel şəhərində, Dünya Gömrük Təşkilatının iqamətgahı qarşısında "Dədə Qorqud" abidəsinin açılışında iştirakı və çıxış etməsi möhtəşəm eposa verdiyi dəyərin yüksək ifadəsi idi.

Dövlət başçısının "Azərbaycandakı monimental heykəltəraşlıq abidələri, memorial və memarlıq kompleksləri haqqında" 2007-ci il tarixli sərəncamında Dədə-Qorqud heykəli və "Dədə-Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması nəzərdə tutulmuşdur. Bakının Nərimanov rayonunda Dədə Qorqud parkı salınmış, parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır. Prezident İlham Əliyev 2013-cü il 13 dekabr tarixində "Dədə Qorqud kompleksi"nin açılış mərasimində çıxış edərək demişdir: **"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur... Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür...".**

Kompleksin açılışından sonra, Azərbaycan Respublikası Prezidentinin "Dədə Qorqud" dastanı əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında" 2013-cü il 28 dekabr tarixli sərəncamında da dastanın **"Azərbaycanın tarixi coğrafiyasını bütün genişliyi ilə əhatə edən monumental epos" və "xalqımıza məxsus qədim adət-ənənələrin ulu babalarımızın dünyagörüşünün, mənəvi aləminin... öyrənilməsində qiymətli mənbə"** olduğu xüsusi vurğulanmışdır.



Haçadağ
Hachadagh
Хачадаг

"Kitabi-Dədə Qorqud" dünya miqyasında Azərbaycan oğuz türklərinin canlı tarixi, bədii nəsr təfəkkürünün möhtəşəm abidələrindən biridir. Fikrimizcə, Azərbaycan Respublikası Prezidentinin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı da mahiyyət etibarıilə bu böyük azərbaycançılıq abidəsini dünya mədəniyyəti hadisəsi səviyyəsində dəyərləndirən dövlət siyasətinin məntiqi davamıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli, 1925 nömrəli sərəncamı

ilə təsdiq edilmiş "Dədə-Qorqudun alman alimi Fridrix fon Dits tərəfindən ilk tərcüməsi, nəşri və dünya elm aləminə tanıdılmasının 200 illiyinə dair fəaliyyət proqramı"nın 40-cı maddəsinə əsasən "Dədə-Qorqud yurdu- Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlasının hazırlanması qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumunun keçirilməsi, professor Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasının yenidən nəşr olunması, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filminin hazırlanması, "Kitabi-Dədə Qorqud" və onun Naxçıvanla bağlılığı" mövzusunda açıq dərslərin təşkili, dəyirmi masaların keçirilməsi, kütləvi informasiya vasitələrində tematik verilişlərin və qəzet materiallarının hazırlanması nəzərdə tutulmuşdur. Qeyd olunan tədbirlərin icrası rəhbərliyə alınmış, 2016-cı ilin martında AMEA Naxçıvan Bölməsində yaradılmış işçi qrupu ona həvalə olunmuş tapşırıqları yerinə yetirərək "Dədə Qorqud yurdu - Naxçıvan" tarixi və etnoqrafik atlasını hazırlamışdır.

"Kitabi-Dədə Qorqud" dastanı dünya dastan yaradıcılığının nadir hadisələrindədir. Görkəmli türk ədəbiyyatşünası Fuad Köprülü "Dədə Qorqud" dastanlarının əhəmiyyətini qabarıq şəkildə nəzərə çarpdırmaq üçün aşağıdakı kimi bir müqayisə aparmışdır: "Türk ədəbiyyatının bütün əsərləri tərəzinin bir gözünə, "Dədə Qorqud" o biri gözünə qoyulsa, yenə də "Dədə Qorqud" tərəfi ağır gələr".

"Kitabi-Dədə Qorqud" dastanı ilk dəfə adı elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınıb. Dastan təxminən beş əsr şifahi təzahür (formalaşma, inkişaf) dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınmışdır. Əlyazmanın üzü dəfələrlə (XI əsrdən XVI əsrə qədər) köçürülmüşdür.

"Kitabi-Dədə Qorqud" dastanında bəhs olunan hadisələr V-VII əsrlərə, bəzi boylarda isə ondan da xeyli əvvələ aid edilir. Dastan Azərbaycan oğuz türklərindən bəhs edir. "Dədə Qorqud kitabı" salnamədir, ədəbi əsər olmaqdan başqa, Azərbaycan dövlətinin ərəb işğalından əvvəlki müəyyən dövrün və ərəb işğalı ərəfəsinin, "Oğuz zamanı"nın tarixidir. Amma bədii şəkildə yazılıb. Bu dastana yalnız ədəbi ölçülərlə dəyərləndiriləsi əsər kimi baxmaq olmaz. Bu kitab həm də tariximizin, soy -



Məminə Xatın türbəsi
Momuna Khatin tomb
Мавзолей Момине Хатын

kökümüzün, mənşəyimizin, məskənimizin müəyyənləşdirilməsi üçün də son dərəcədə etibarlı və mötəbər bir qaynaqdır. Oğuzlar isə Azərbaycandan başqa indiki Ermənistan, Gürcüstan ərazisinin də müəyyən hissələrində yaşayırdılar. Bu, azərbaycanlıların tarixən və indi yaşadıqları yerlərə tam uyğun gəlir.

H.Araslıya görə, dastanların ilk variantı-orijinalı Azərbaycanda yazıya alınmışdır. M.Ergin belə bir fikrə gəlmişdir ki, "Dədə-Qorqud" dastanı Azərbaycan dilində yazılmış və azərbaycanlılara aid bir abidədir. "Dədə Qorqud kitabın"dakı süjetlər təsdiq edir ki, onun boyları Qafqazın cənub ətəkləri və bütövlükdə Azərbaycan ərazisilə bağlıdır, boylardakı əhvalatlar Kür-Araz düzənliyində, Şərur mahalında, Əlincəqala qoruqlarında, Dərəşamda, Ağcaqalada, Sürməlidə, Ağqayada, Qaradərədə, Qara dağda, Kökcə dağda, Bayatda və s. yerlərdə baş verir. Bu addakı yerlər isə Naxçıvan ərazisində, Araz üstündə, Zəngilanda, Göyçə mahalında, Ağcabədidə, Şəmkirdə, Şəkidə, Şirvanda, Dəvəçidə, Abşeron torpağında bu gün də mövcuddur.

Mahmud Kaşğarlının məlumatına görə oğuzlar türklərin daha güclü boyudur. Bu boy öz daxilində müstəqil qollara ayrılır. Oğuz qolları 24-dür. Bunlardan "Qınıq"lar, "Boyandur"lar, "Əfşar"lar, "Bəgtili"lər, "Bükdüz"lər, "Bayat"lar, "Beçənək"lər Azərbaycanın tarixi torpaqlarında daha çox məskunlaşmışlar.

"Dədə-Qorqud kitabı"nda V-VII əsrlərin hadisə və əhvalatlarında Azərbaycan dövlətçilik ənənəsi də əks olunmuşdur. V-VI əsrlərdə bütövlükdə Qafqaz Göy Türk xaqanlığına daxil idi. Azərbaycan isə müstəqil dövlət olaraq fəaliyyət göstərirdi. Onun 90 minlik qoşunu, özünəməxsus dövlətçilik ənənələri, ciddi qayda-qanunları vardı. "Qalın Oğuz" xaqanlığı "İç oğuz" və "Dış (Daş) oğuz" inzibati ərazilərinə bölünmüşdü. "İç oğuz" dedikdə Kür-Araz ovalığı (Aran) yerləşən torpaqlar nəzərdə tutulurdu. "Dış oğuz"a isə Şimali və Cənubi Azərbaycan vilayətləri, habelə gündoğan Anadolunun Van vilayəti və qalan ərazilər daxil idi. Erkən orta əsrlərdən Azərbaycan kimi tanınan oğuz türklərinin dövləti Urmiya, Göyçə gölü və Xəzər dənizi, Qızılüzən və Samur çayı, Dəmir qapı Dərbənd və Həmədan çevrəsi ərazilərini əhatə edirdi.



Dərəşam dərəsi
Darasham valley
Долина Дерешам

"Kitabi-Dədə Qorqud"da Azərbaycanımızın ulu sələfi - Oğuz eli təsvir olunur ki, bu eposda müasir mənada anladığımız dövlətçiliyin bütün əlamətləri var. Qədim dövlətçiliyimizdə iki-hakimiyyətlilik olub. Xaqan və şah

hakimiyyəti, "Dədə Qorqud"da Bayandır xan xanlar xanıdır, Qazan xan bəylər bəyi. Qanunvericilik hakimiyyəti - hökm vermək, fərman vermək Bayandır xanın səlahiyyətində, icra hakimiyyəti, habelə, ordu, iqtisadiyyat Qazan xanın əlində cəmləşmişdi.

Dastanda ən nümunəvi cəhətlərdən biri də vahid dövlətçilik ideyasıdır. Bu məqsədlə Oğuz bəyləri öz içərilərindən ağsaqqal seçmək, onun təklif və tapşırıqlarını sözsüz yerinə yetirmək amalı formalaşdırmışlar. Belə bəylərdən biri də Bayandır xan olmuşdur. Bayandır xan dastanda böyük bayraq götürən, Oğuz igidlərinin vətəni qorumaq mübarizələrinə rəhbərlik edən bir dövlət başçısı kimi çıxış edir, dövlətçiliyi hər şeydən üstün tutur, dövlətə qarşı çıxanlara heç bir güzəşt etmir.



Əlincəqala tarixi abidəsi
Alinjagala historical monument
Исторический памятник Алинджагала

Dastanda Oğuz elinin dövlətçiliyə, qanunların aliliyinə, ictimai ədalətin qorunmasına riayət və hörməti özünü qabarıq şəkildə göstərir.

Dastanda belə bəylərdən biri də Salur Qazandır. Qazan xalqın ümidi, soyun aslanı, igid arxası, Qalın Oğuzun başçısı hesab edilir. O, bu etibarı və hörməti dövlət xidmətində qazanmışdır. Salur Qazan, Oğuzun bütün dövlət işini aparır. O, dövlət qanunlarının pozulması hallarına yol vermir, Oğuza qarşı çıxan, onun birliyini pozub parçalamaq istəyən dayısı Aruzu belə öldürür və məmləkətin bütövlüyünü qoruyub saxlayır.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq, vətənpərvərlik haqqında dastandır. Burada oğuz igidlərinin Azərbaycana hücum edən xarici qüvvələrə, feodallara, onların havadarları olan Bizansa, həmçinin gürcü hakimləri ilə əlbir hərəkət edən qıpçaq türklərinə qarşı mübarizəsi daha geniş və daha parlaq əks olunmuşdur. Azərbaycan xalqının yadellilərə qarşı qəhrəmanlıq mübarizəsi səhifələri ilə zəngin olan "Kitabi-Dədə Qorqud" dastanı həm də xalqımızın zəngin oturaq mədəniyyətə malik olduğunu sübut edir. Dastanda Vətən anlamı – Dəmirqapı-Dərbənddən tutmuş Göyçəyə, Əlincədən tutmuş Zəncana və Anadoluya qədərki əraziləri əhatə edir.

"Kitabi-Dədə Qorqud" həm də oğuzların əxlaq kitabıdır. Böyüyə hörmət, ata-anaya məhəbbət, ailəyə sədaqət - bu insani keyfiyyətlər oğuz övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur. Oğuz igidləri "ana haqqı – tanrı haqqıdır" ifadəsini özləri üçün müqəddəs alın yazısı, həyat amalı seçmişlər.

"Kitabi-Dədə Qorqud" dastanı **Naxçıvanla** bağlıdır. Çünki dastanda göstərilən, baş verən hadisələr, bir sıra boylarda adı çəkilən Qaraçuq, Əlincə qalası, Dərəşam, Şərur (Şəruk) kimi coğrafi adlar Naxçıvan Muxtar Res-



Salaxan mağarası
Salakhan cave
Пещера Салахан

publikası ərazisindədir. Son illərə qədər tədqiqatçılar dastanda Naxçıvanla bağlı ancaq bu toponimlərdən bəhs edirdilər. Lakin aparılan tədqiqatlar təsdiq edir ki, belə yer-yurd adlarının sayı daha çoxdur.

Mənbələrdən "Kitabi-Dədə Qorqud" dastanında təsvir edilən bir sıra tarixi hadisələrin məhz Naxçıvan ərazisində baş verdiyi məlum olur. Oğuzların güclü bir qolu Azərbaycanın cənubunda, Naxçıvan, Urmiya regionlarında və Anadoluda məskunlaşmışlar. Naxçıvan ərazisində mövcud olan qədim qəbir abidələri minillər boyu xalq arasında "oğuz qəbirləri" adlandırılmışdır. Bu abidələrə ən çox Naxçıvanın qala şəhərinin, Əlincəqala, Ərməmməd piri və Oğlanqalanın yerləşdiyi ərazilərdə rast gəlinir.

Bir sıra dilçi alimlərin tədqiqatlarına görə "Kitabi-Dədə Qorqud" dastanının dili və üslubu ilə bağlı səciyyəvi cəhətlər Naxçıvan Muxtar Respublikasının Şərur rayonu əhalisinin dili ilə bu gün də səsləşir. Müəyyən olunmuşdur ki, abidənin dilinin sistemi orta əsr Azərbaycan dilinin səviyyəsinə tam uyğundur.

Naxçıvan ərazisinin toponimlərinin ən yaxşı tədqiqatçısı sayılan coğrafiyaşünas alim, AMEA-nın müxbir üzvi Səfərəli Babayev "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən 50-dən çox yer adlarının, hidronimin Naxçıvanda bu gün də qorunub saxlandığını qeydə almışdır.

S.Babayev Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud" dastanları ilə səsləşən coğrafi adlara xüsusi monoqrafiya – "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri"[1] – həsr etmişdir. "Kitabi-Dədə Qorqud" dastanının Naxçıvanla bağlılığı ilə əlaqədar tədqiqatlar aparan İ.Həbibbəyli, İ.Hacıyev, F.Səfərli, Q.Qədirzadə, A.Bağırov, A.Bayramov, V.Əliyev, A.İmanlı, Y.Səfərov, F.Rzayev, N.Bababəyli və başqaları dastanda bu və ya başqa səviyyədə adı çəkilən, yaxud bilavasitə qeyd olunan Naxçıvanın yer adlarından bəhs etmişlər.

Tədqiqatlarla müəyyən edilmişdir ki, "Kitabi-Dədə Qorqud"la əlaqədar olan toponimlər Naxçıvan Muxtar Respublikasının əsasən üç regionunda yerləşir:

---

[1] *S.Y.Babayev. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: Yeni Nəşrlər Evi, 1999, 224 s.*

1. Arazboyu düzənlik və alçaq dağlıq sahədə (Sədərək, Qaraçoban, Şərur, Böyükdüz, Sədərək, Əyrək, Qazançılı, Qazançılar, Qaraçuq kəndləri, Dərəşam qədim yaşayış məntəqəsi, Dərəşam suyu, Qara dərə).

2. Orta dağlıq sahədə (Əlincə qalası, Ağ qaya, Qazançı kəndi, Qazançı qalası, Qaraquc Dərbəndi, Məkkəz Dərbəndi, Sirab Dərbəndi, Günortac (Günorta daşı), Qaradağ).



Qazan xan yaylağı
Gazan khan plateau
Эйлаг Газан хан

3. Yüksək dağlıq sahədə (Salaxan qayası, Qaracuq (Qaraquş) dağı, Qazan yaylağı, Altuntaxt, Buğaçeşmə, Köksügözəl, Göy dağ (Göyçə dağı), Göy-göl, Qazangöl aşırımı, Qazangöl dağı, Qazanköç yaylağı, Qazan yurdu və bunlarla bilavasitə əlaqədar olan Nəbi yurdu, Gəmiqaya və s.

Dastanda adı çəkilən Səgrək, Əgrək, Qaraca Çoban, Buğac kimi adlarla Naxçıvanda neçə-neçə yer adları mövcuddur. Oğuzun məşhur sərkərdəsi Salur Qazan adı və onunla bağlı qəhrəmanlıqlar Naxçıvan əhalisinin dilində, yaddaşında yaşamışdır. Qazan xanın adı ilə bağlı Əlincə qalası yaxınlığında, Qazançı kəndində qala-şəhər, Ordubad rayonu ərazisində Qazan yurd-yaylağı və s. toponimlər vardır. Dastandan aydın olur ki, Qazan xan oğuzların Salur (Salur Qazan) boyundandır. Fikrimizcə, Culfa rayonunun Saltaq kəndinin adı da bu tayfa ilə bağlıdır. Dastanda onun adının əvvəlində işlənmiş "Qaraçuğun qaplanı" epiteti də maraq doğurur. Dastanı söyləyən və onu düzüb-qoşan həmin bədii təyini işlətmişdir. Maraqlıdır ki, onun sədaqətli çobanı da Qaraçuq Çoban adlanır. Qaraçuq leksik vahidi Salur tayfasından olan bir eli, tirəni və ya Qazan xanın yurdunu bildirməkdədir. Etnonimdən – tayfa adından törənən toponimlər (Qaraçuq, Qaraçalar, Qaraca və s.) ilk vaxtlar qaraca köməkçi ad kimi işlənmiş, sonra şəxs və tayfa adında ifadə olunmuş, daha sonra isə həmin adlar toponimə çevrilmişdir. Bu hal bir sistem kimi bütün türk ellərinin, eləcə də Azərbaycanın toponimiyasında mövcuddur.

Ordubad rayonu ərazisində olan Qazangöl dağı, Qazanyurd, Əlincə yaxınlığındakı Qazanqala, Culfa rayonundakı Qazançı kimi toponimlər Oğuz qəhrəmanı olan Qazan xanı xatırlatmaqdadır. Qazançı kənd adı əşya ilə yox, şəxs adı ilə bağlıdır. Onun mənası "Qazanın tərəfdarı" deməkdir.

"Kitabi-Dədə Qorqud" dastanında qeyd olunan bir sıra mühüm tarixi-coğrafi yer adları Naxçıvan diyarının ərazisinə aiddir. Əsərdə Ağcaqala və Sürmәlik adları bəzən eyni, bəzən də müxtəlif yer adları kimi verilmişdir. Bu məskənin Arpaçay vadisində, indiki Naxçıvan torpağında yerləşdiyi göstərilir. Qeyd etmək lazımdır ki, Sürmәlik adlı kənd Babək rayonu

ərazisində Nəhəcir dağının ətəyində Əlincəqala yaxınlığında da olmuşdur. Bu ərazidə Zoğala adlı kənd və çay adına da təsadüf edilir.

"Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da yazılmışdır: "Qazan Ağcaqala, Sürməliyə gəlib, qırx otaq tikdirdi. Yeddi gün, yeddi gecə yemək-içmək oldu. Qazan qırx evli qulu qırx xidmətçi qızı oğlunun başına çevirib azad eylədi. Qəhrəmanlıq göstərənlərə böyük ölkə verdi, cübbə-çuxa verdi".

Dastanın "Uşun qoca oğlu Səgrək boyu"nda məşhur Əlincəqalanın və Şirokuzun (Şərukun, Şərurun) adları çəkilir və baş vermiş hadisələrdən bəhs olunur: "Tərsuzamışın sözü Əgrəyə təsir elədi. Durdu Qazan bəydən yürüş üçün icazə istədi. İzn verildi. Çağırdılar, döyüşçülər yığıldı. Üç yüz nizəli seçmə igid Əgrəyin yanında cəmləşdi. Meydanda beş gün yemək-içmək oldu. Ondan sonra Şirokuz (Şərur) kənarından Göyçə dənizinədək sahəni çapıb taladılar. Böyük qənimət əldə etdilər. Əgrəyin yolu Əlincə qalasına düşdü. Qara Təkur orada bir qoruq düzənləndirmişdi... Quşlardan bu dairəyə qaz, toyuq, heyvanlardan keyik, dovşan doldurub, buranı oğuz igidləri üçün tələ etmişdi".

Əlincə "Dədə Qorqud" dastanında qala kimi xatırlanır. Şahbuz rayonunda daha bir Əlincə kənd adı da var. Bir sıra tədqiqatçıların fikrincə həmin qala və kənd adları eyni adın müxtəlif fonetik tələffüz formalarıdır. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də Əlincə Azərbaycan kəndi kimi göstərilmişdir. Əlincə toponiminin yayılma arealı çox geniş olmuşdur. Ərincə adlı yaşayış yer adları Göyçə, Ərzurum, İran, Ağbaba elində, mesxeti türklərinin vətəni olan Axısqa şəhəri yaxınlığında da olmuşdur. Çox güman ki, bu toponimlər öz mənşəyini "Əlincək" adlı tayfanın adından almışdır. M.Kaşqarlının "Divani-lüğətit-türk" əsərində də erincə //ərincə formasında leksik vahid xatırlanır. Əlincə // Ərincə modelində Naxçıvanda Qaraca, Qızılca, Yarımca, Əyricə, Yengicə kimi kənd adları vardır.

Bir sıra tədqiqatçılar Şərur mənasına gətirib çıxaran Şirokuz etnonimini müxtəlif cür oxumuşlar. A.Bartold bunu "Şerüküz", O.Gökyay və E.Rossi "Şürük", M.Erkin "Şiroquvən", H.Araslı "Şəruk", Ş.Cəmşidov isə "Şərur" kimi oxumuşdur. Qərbi Azərbaycandakı (indiki Ermənistandakı Şirək) Şirak yaylası ilə bağlıdır. O bir yer adı kimi protobulqarlarla bir vaxtda cənubi Qafqaza gəlib yerləşmiş şirakların adından yaranmışdır. Şiraklar özləri də protobulqar (protooğuz) soyu imişlər. Sözün tərkibindəki "okuz" və ya "kuz/quz" komponenti belə ehtimal üçün əsas ola



Altun dərə
Altun dara (Altun valley)
Долина Алтун

bilər.

"Dədə Qorqud"un "Uşun qoca oğlu Səgrək boyu"nda iki yerdə Dərəşam toponimi xatırlanır: "Dərəşam ucundan keçdi", "Dərəşam suyunu dəlüb keçdilər". Elə həmin boyda ərquru yatan Aladağ və Əlincə qalası toponimləri də xatırlanır. Burada ərquru, yəni köndələn yatan Aladağ dedikdə Naxçıvandan görünən Ağrı və ya Ələyəz dağı nəzərdə tutulur. Aladağ Ələyəz dağının ikinci bir adı kimi işlədilir.



Əlincəqala tarixi abidəsi
Alinjagala historical monument
Исторический памятник Алинджагала

XVIII əsrin 20-ci illərində Naxçıvan osmanlıların tabeliyində olarkən Dərəşam 4 kəndi birləşdirən nahiyyə kimi Naxçıvan sancağının tərkibində idi. İndi Babək rayonunun Nehrəm kəndi ətrafında Birinci Dərəşam və Dərəşam kənd adları qalmaqdadır. Bu toponimin tərkibindəki "dərə" leksik vahidi müasir dilimiz üçün aydın olan coğrafi termindir, "şam" isə Naxçıvan və Zəngəzur bölgələrinin kəndlərində dialekt söz kimi işlənir. Məsələn, Alıbəyli şamı, Abbas bəy şamı, Mincivan şamı, Muğanlı şamı (Zəngilan), Qız şamı, Ordubad şamı (Ordubad). Toponimin tərkibindəki şam dialekt söz olaraq çayın durğun yerində bitən qamışlığı bildirir.

Naxçıvan şəhəri yaxınlığında olmuş, indi şəhərin tərkib hissəsinə çevrilmiş Qaraçuq toponimi Oğuz qəhrəmanlarından Qaraca çobanla, Kəngərli rayonu ərazisində yerləşən Böyükdüz Bəkdüz Əmənin adı ilə bağlıdır. Qaraçuq // Qaraçıq adlı etnotoponimlər Qafqazda, Krımda, Bolqarıstanda, Orta Asiyada, İran və Türkiyədə də geniş yayılmışdır. Tayfa adından törənən bu toponim ilk vaxtlar qaraca köməkçi ad kimi işlənmiş, sonra isə həmin adlar toponimə çevrilmişdir.

Tədqiqatçılar Naxçıvanın "Dədə Qorqud"la əlaqədar yer adlarını üç qrupa bölmüşdür:

1. Adları birbaşa "Kitabi-Dədə Qorqud"da göstərilən coğrafi obyektlər. Belə obyektlərin sayı 16-dır: Ağ qaya, Altuntaxt, Qara dərə, Qaraçuğ, Qaraquc (Qaraquş) dağı, Qara dağ, Dərbəndlər, Dərəşam, Dərəşam suyu, Əlincə qalası, Köksügözəl, Günortac, Salaxan qayası, Şəruk (Şərur), Göyçə dənizi (Göy-göl), Göyçə dağ.

2. Dastanın qəhrəmanlarının və oğuz tayfalarının adlarından törəndiyi güman edilən toponimlər: Sədərək, Qaraçoban, Böyükdüz; Sədərək, Səgrək, Əgrək, Qazançı, Oğuz daşı, Daş qışlağı, Aşağı Daşarx, Yuxarı Daşarx, Qazançılar, Qazançılı və Bayat əşirətinin kəndlərini, Buğaçeşməni, Qazan gölü, Qazan yaylağı, Qazanköçü, Sarı ağılı, Sarı bulağı, Sarı dağı və başqalarını göstərmək olar. İkinci qrupa daxil olan coğrafi obyektlərin

adları içərisində dastanın baş qəhrəmanı Qazan xanın adı ilə əlaqədar olan toponimlər çoxluq təşkil edir. Onlar muxtar respublikanın 4 regionunda (Ordubad, Culfa, Babək, Şərur) yerləşir: Qazangöl dağı, Qazangöl aşırımı, Qazanköç yaylağı, Qazan yurdu, Qazan bağı, Qazangöl; Qazançı kəndi, Qazançı qalası, Qazançı gölü, Qazançı mineral bulağı; Qazan yaylağı, Qazan yurdu, Qazan bulaq, Qazan yoxuşu, Qazan çuxuru, Xan yurdu, Altuntaxt; Qazançılar, Qazançılı kəndləri.

Naxçıvan ərazisində Qazan xanın adı ilə əlaqədar 20-yə qədər toponimin olmasını, onların bir-birinin yaxınlığında dörd qrupda yerləşməsini təsadüfi hesab etmək olmaz. Bunlar bilavasitə Salur Qazanın adı ilə əlaqədar yaranmışdır.

Uşun qoca oğlu Səgrəyin adından Sədərək kəndi, Sədərək düzü toponimləri, Əgrəyin adından isə Əgrək kəndləri adının yaranmasını demək olar. Fikrimizcə, Səgrək və Əgrəyin atası Uşun qoca oğuz ellərinin Sədərək, Şərur, İqdır, Qaraçuğ bölgəsinin hakimi imiş, Böyükdüz-dastanının qəhrəmanlarından Bükdüz Əmənin, Qaraçoban düzü-Qaraca Çobanın, Sarı ağıl, Sarıbulaq, Sarı dağ Qopuz qoca Sarı Çobanın, Buğaçeşmə Buğacın adını yaşadan toponimlərdir. Dastanda bayat boyundan bəhs olunur. Naxçıvan ərazisində mövcud olmuş Ağgül kəndi, Nəcəf və Zülfüqar qışlaqları Bayat tayfası ilə əlaqədardır.

3. Üçüncü qrup toponimlərə yuxarıda göstərilən toponimlərdən törəyən mikrotoponimlər daxildir. Bunlara misal olaraq Qazan yurdu, Qazan yoxuşu, Qazan çuxuru, Qazan bulağı, Buğaçeşmə dərəsi, Salaxan dərəsi, Salaxan yurdu və başqa mikrotoponimləri göstərmək olar.

"Kitabi-Dədə Qorqud" dastanında Uşun qocanın oğlanları Əgrək və Səgrəyin səfərlərinin istiqaməti, rastlaşdıqları coğrafi obyektlər, Salur Qazanın qoyunlarının hansı Dərbənddə saxlanılması, Qaraçuğun, Qaraquçun, Göyçə dənizinin harada yerləşməsi məsələsi qorqudşünaslar tərəfindən müxtəlif cür izah edilmişdir. Bu məsələlərə prof. S.Babayev aydınlıq gətirmiş və göstərmişdir ki, "Əgrək öz səfərinə şimaldan deyil, Naxçıvan diyarının qərbindən Şərukun (Şərurun) ucundan başlayır, Göyçə dənizə (Göy gölə) təkin çapıb-talayır, oradan qayıdarkən Əlincə qalasında əsir düşür. Qardaşını axtarmağa gedən Səgrək də həmin marşrutla hərəkət edib, Dərəşam ucundan keçir, qardaşının əsir olduğu Əlincə qalasına gəlir, onu azad edir, Dərəşam suyunu keçərək oğuz elinə qayıdırlar"[2].

Dastanın tədqiqatçıları Dəmirqapı Dərbəndlə Qapılı Dərbəndi eyniləşdirirlər. Bunlar ayrı-ayrı yerlərdə yerləşir. "Qapılı Dərbənd ya Naxçıvanın Şərur rayonundakı Qaraquç (Tənənəm) Qapılı Dərbəndi, ya da Qərbi Azərbaycandakı Qapılı Dərbənddir".

Naxçıvan bölgəsində xeyli yer-yurd, çay, qala adlarının eposla bağlı olduğu öz təsdiqini tapır. Bundan başqa, Naxçıvan ərazisindəki Şahbuz,

---

[2] *S.Y. Babayev. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: Yeni Nəşrlər Evi, 1999, s.58, 60.*

Buzqov yer adlarındakı "buz" şəkilləri Midiya tayfalarından biri olan "bus" qəbiləsinin adını yaşadır. "Buz", "bus", eləcə də "bos" oğuzların əsas tirəsi sayılan "boz oğ" lardır. Hələ erkən əsrlərdə Naxçıvanda məskunlaşmış türkeş, peçenek, kənkər, az, ahur, şada, yayçı, qarabağlar, qaraçuq, qızılca və digər tayfa adları Naxçıvanın coğrafi adlarında öz əksini tapmışdır ki, bunların bir qisminə "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir.

Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir. Çünki Dədə Qorqud toponimləri Qorqud Atanın torpağa basılmış Türk-Oğuz möhürüdür. Dədə Qorqud toponimləri hətta bu gün də Azərbaycana bağlı Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanması, möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında "Dədə Qorqud"la səsləşən yer adları ilə bağlı onlarla əfsanə və rəvayətlər də mövcuddur ki, xalqımız bunları da yaşadır. "Ağ qaya", "Qız gəlin qayası", "Daşlaşan-heykəlləşən analar", "Yeddi bulaq (Yeddi bacı)", "Oğlanqala-Qızqala", "Adamyeyən Kəlləgöz qəhrəman", "Matı ilə ayının əfsanəsi" və başqa əfsanə və rəvayətlər "Dədə Qorqud"la səsləşir və bunlar təsadüfən yaranmayıb.

Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanında əksini tapan ictimai-siyasi hadisələr əsasən Azərbaycan ərazisində baş verərək və bununla da Azərbaycanın qədim oğuz türklərinin məskəni olduğunu bir daha təsdiq edir. Dastan oğuz türklərinin şəcərəsi, soy kökü, onların həyat tərzi, məişəti, adət-ənənələri barədə məlumat verən elmi qaynaq, tarixi mənbədir.

"Kitabi-Dədə Qorqud" dastanı etnoqrafik zənginliyi ilə də diqqəti cəlb edir. Lakin etiraf olunmalıdır ki, dastan bir sıra yönlərdən tədqiqata cəlb edilsə də, etnoqrafik cəhətdən araşdırılması son illərə aiddir. Bu istiqamətdə AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin tədqiqatlarını[3] qeyd etmək olar. "Dədə-Qorqud yurdu-Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlasının işçi qrupu tarixi və etnoqrafik anlayışların izi ilə muxtar respublikanın 200-ə yaxın yaşayış məskənlərində olmuş, informatorlarla görüşmüş, dastanda işlədilən söz və ifadələrin, deyimlərin indiki vəziyyətini tədqiq etmiş, müqayisələr aparmış, maraqlı və əhəmiyyətli nəticələrə gəlmişlər. Tədqiqatlar nəticəsində daha çox ayrı-ayrı boylar üzrə qarşılaşdırmalar, tarixi proseslər, bir sıra adət və inamların genezisi, müasir məişət münasibətlərində onların yeri məsələlərinə diqqət yetirmişlər.

"Kitabi-Dədə Qorqud" dastanı öz müasirliyini, aktuallığını günümüzədək qoruyub saxlamışdır. Bu, hər şeydən əvvəl, xalqımızın özünəməxsus etnik xüsusiyyətlərinin hər bir boyda qabarıq şəkildə əks olunması ilə bağlıdır. Atlas üzərində iş aparılarkən daha çox aşağıdakı etnoqrafik

---

[3] *Q.İ.Qədirzadə. "Kitabi-Dədə Qorqud" və Naxçıvan: qarşılaşdırmalı etnoqrafik motivlər. Naxçıvan: "Əcəmi" NPB, 2016, 128 s.*

məsələlərə diqqət verilmişdir:

1. Oğuzların təsərrüfat həyatı, maddi mədəniyyəti və bunların Naxçıvanda izləri.

2. Dastanda işlədilən geyim və bəzək adları.

3. Dədə Qorqud oğuzlarının yemək və içki növləri.

4. Dastanda adı çəkilən sənətlər və xalq nəqliyyat vasitələri.

5. Əkinçilik və maldarlıq sahələri, günümüzdə Naxçıvanda işlədilən formaları.

6. Oğuz elinin idarəçilik sistemi, ailənin idarə olunması, dini inanclar.

Dastanda işlədilən onlarla etnoqrafik motivlərə "Neylələyim, bu yığılacaq evdə un yoq, ələg yoq. Dəvə dəgirməndən gəlmədi", "Kül təpəcik olmaz", "Yad oğlu saqlamaqla oğul olmaz", "Qız anadan görməyincə ögüt olamaz", "Sana bu yaradan, qorxa, oğlan, ölüm yoqdur. Tağ çiçəyi ana südilə sənin yarana məlhəmdir", "Əzəldən yazılmasa, qul başına qəza gəlməz. Əcəl vədə irməyincə kimsə ölməz", "Arqızı söyləmə, məzə itüm kafir! İtüm elə bir yalaqda yundum içən azğın kafər" və b. – rast gəlinir ki, muxtar respublika ərazisində bu ifadələrin izləri açıq-aşkar görünür. Müəyyən edilmişdir ki, "qızılcıq dəgənək" – "zoğal ağac", "qənarə" – heyvanı asmaq üçün ağaca vurulmuş çəngəl, "bozlamac" – "çıppa", "dəstana", "fətir", "börk" – kişilərə məxsus baş geyimi və başqa söz və ifadələrin mənalarını verir. Dastanda işlənmiş bir çox etnoqrafik terminlərin – "oba", "ordu", "şəhər", "qala", "ətmək", "bozlamac", "qaftan", "sarıq", "başmaq", "bez", "ətək", "əgin", "alaca", "dəsmal", "atlas", "yelkən", "göbəkkəsmə", "davul", "cübbə", "don", "ağıl" və b. terminlərin bu gün də Naxçıvanda eyni mənanı, yəni dastandakı məna ilə üst-üstə düşdüyünü göstərir.

Dastandakı oğuzların əsas və daimi yaşayış yeri ordu və yurddur. Digər yaşayış məskənləri qalalardır. Qalalar həm müdafiə, həm də sığınacaq yeridir. Qalalardan bəzilərinin indi də "sığınacaq" adlandırılması bununla bağlıdır. Oğuzların yaşayış evləri əsasən "ev", "oba" sözləri ilə ifadə olunmuşdur. Müxtəlif boylarda ala çadır, altun başlı ban ev, çətir otaq, ala sayvan, imarət kimi ev tipləri xatırladılır. Oğuzların istifadə etdikləri touq koması, sığır tamı, tövlə, ağıl kimi köməkçi təsərrüfat tikililəri bu gün də Naxçıvan Muxtar Respublikasının kəndlərində eyni funksiyanı daşımaqdadır.

Dastanda geyim adlarına rast gəlinir ki, bunlar oğuzların məişətini, sosial-iqtisadi və mədəni səviyyəsinin göstəricisi kimi mənalındırıla bilər: don, cübbə, çuxa, kömələk, şalvar, qaftan (başdan geyilən don), kürk, kəpənək, covşan və b. geyim adları Naxçıvanda indi də ifadə olunur və həmin mənanı verir.

"Kitabi-Dədə Qorqud" dastanında oğuz sözü ilə bağlı "oğuz, oğuzladı – oğuz saydı", "ol məni oğuzladı – o məni oğuz saydı, oğuza nisbət qıldı". Məlumdur ki, "oğuz" türk tayfalarının adıdır. Oğuzca ataya "dədə" demişlər. Oğuzca "tarığ" darı, "çəkic-çəkük", "küvük" – saman, "keçi" sözü "keçi"

kimi işlənmişdir. "Başmaq" sözü oğuzca elə "başmaq", "qoç" sözü oğuzca "qoç–qoyunun erkəyi" mənasındadır. Göründüyü kimi, ifadə olunan sözlərin əksəriyyətinin mənası və ifadəsi bu gün muxtar respublikada da həmin mənanı verir.

Oğuzların əsas yeməkləri yəxni, qovurma və şişlikdir. Bu gün də Naxçıvanın əksər bölgələrində qışa ət ehtiyatı kimi qovurma bişirilib hazırlanır və istifadə olunur. Dastanda ən çox adı çəkilən və Azərbaycan xalqının indi də ən ləziz yeməyi sayılan kababdır. Qovurma da, kabab da qoyun ətindən hazırlanır. Oğuzların əsas qida vasitəsi çörək – "ətməkdir". Dastanda da oğuz yurdunun övladlarının yeməklərinin arasında tez-tez ətmək (Naxçıvanda əppək) adına rast gəlinir. "Ətmək" (əppək) sözü isə bir qayda olaraq "əkmək" sözündən yaranmışdır. Oğuzların içkiləri su, qımız, ayran və şərabdır. Tədqiqatlar sübut edir ki, "araq" sözü ərəb mənşəli deyil, türk mənşəlidir və onun alınma texnologiyasını ifadə edir. Günümüzdə Naxçıvanda "bitkinin arağını çəkmək" deyərkən ondan cövhər hazırlanması nəzərdə tutulur ki, bu spirtsiz içkidir ki, ondan müalicə məqsədi ilə istifadə edirlər. "Kitabi-Dədə Qorqud" dastanında yeməklər və içkilərin tədqiqi göstərir ki, maddi mədəniyyət sahəsində ənənələr itirilməmiş və bu ənənələr cüzi dəyişikliklə muxtar respublika əhalisi arasında bu gün də davam edir.

Oğuz türklərində dəriçilik, xalçaçılıq və keçəçilik sənəti yüksək səviyyədə inkişaf etmişdir. Keçəçilik maldarlıq təsərrüfatının ayrılmaz hissəsidir. Oğuzların çadırları keçədən olur, altlarına keçə salır, yapıncıları da keçədən hazırlanırdı. Dastanda işlədilən sənət sahələri, musiqi alətləri, məişət əşyaları, nəqliyyat vasitələri, silah və zərgərlik məmulatlarının adları günümüzdəki adlarla tam üst-üstə düşür: bez, dəsmal, atlas, qumaş, məxmər, nağara, zurna, qopuz, araba, xəncər, bıçaq, zəncir, külüng, qalxan, üzəngi, nal, altun üzük və başqaları. "Kitabi-Dədəd Qorqud"un izahlı lüğətində "oq/ox-yayla atılan itiuclu və ya ucuna iti dəmir keçirilmiş mil", "yay-oxun yayı" kimi söz və izahlarla rastlaşırıq.

Dastanda "-Bəylər, sizin eşqinizə çəkəyin yayı, atayın oxu-dedi" ifadəsində ox və yay sözlərinin yazılışı və mənaları bu gün də Azərbaycan dilində saxlanmışdır.

Oğuzlarda əkinçilik və maldarlıq yüksək inkişaf səviyyəsində olmuşdur. Bunu dastanda işlədilən bir sıra söz və fikirlərdən görmək olur. Dədə Qorqud oğuzları əsasən buğda, arpa və darı əkirlər. Dastanda badam, üzüm və almadan bəhs edilir. "Güz almasına bənzər al yanaqlım" ifadəsindən aydın görünür ki, oğuzlar bağçılığın inkişafında yüksək nailiyyətlər əldə etmişlər. Həmin alma növünün indi də Azərbaycanda, eləcə də Naxçıvanda yüksək qiymətləndirilən Qızıl Əhmədi almasının olduğu məlumdur. Qadınların gözəlliyi ilə əlaqəli işlədilən bu ifadə Naxçıvanın dağlıq bölgəsinin qızları, qadınları ilə bağlı indi də işlədilməkdədir: "Payız almasının kimi ağqırmızı yanaqlı".

"Dədə-Qorqud" dastanında təsərrüfatla bağlı işlədilən terminlər bu

gün də olduğu mənanı ifadə edir. Dastanda oxuyuruq: "-Toğlucuqlar, dövlətin saqar qoç, gəl keç! - dedi". "Kitabi-Dədə Qorqud"un izahlı lüğətində "toğlu-toğlu, qoyun balası" kimi izah olunmuşdur. "Ərkəç-erkəc, təkə" sözünə "Dədə Qorqud" dastanındakı "-Mərə, qoyun başları, erkəc! – dedi. Qoyunlar bir-bir gəlib keçdi", "Çoban erkəcə qaqdı, iləri vardı" ifadəsində rast gəlinir. "Kitabi-Dədə Qorqud"un izahlı lüğətində "ərgəc-erkəc (erkək keçi, təkə)" kimi açıqlanmışdır.

İşlətdiyimiz "dəyirman" sözünə "Kitabi-Dədə Qorqud" dastanında "dəvə dəyirmandan gəlmədi" ifadəsində rast gəlinir. Dastanda verilmiş "Qaravaşlar inək sağar görmədinmi" ifadəsində bu söz elə "inək" kimi yazılmışdır. "At" sözü dastanda at, həm də yunq kimi işlədilir: "at ayağı kölik, ozan dili çevik olur", "dolanbaz urub, yundları ürkütdü, gətirib ol qoruya qoydu".

Dastanda ailənin idarə olunması, ailə-nikah münasibətləri və toy adət-lərindəki əsas cəhətlər günümüzlə səsləşir. Dastanın etnoqrafik təhlili göstərir ki, ilk orta əsrlərdə oğuzların əsas ailə forması iki nəsil olmaqla – valideynlər və övladlardan ibarət idi. Belə ki, evlənmiş oğullara bəylik hüququ verilməklə onlar valideynlərindən ayrılır və ayrıca oba, ev yaradırdılar. Bütün ailə üzvləri ailə başçısına tabe idi. Evdə səlahiyyət evin böyüyü öldükdən sonra anaya deyil, oğula keçir və ailə mülkiyyətinin varisi oğuldur. Çöl-təsərrüfat işləri əsasən kişilərin öhdəsindədir. Oğuz ailəsinin ən müqəddəs simvolu namus və iffətdir. Oğuz ailəsinin əsas nigah forması təkkəbinlilikdir, qohumla (əmioğlu, əmiqızı ilə) nikaha dastanda bir yerdə rast gəlinir.

Tarixi mənbələr orta əsrlərdə Azərbaycanda təkarvadlılığın əsas nikah forması olduğunu göstərir. Oğuz cəmiyyətində əsas nikaha girmə forması kimi göbəkkəsmə və toy etmək yolu ilə evlənmə diqqəti cəlb edir. Dastanda evlənmək istəyən oğlan da qız tərəfindən sınaqdan keçirilir, məhz bundan sonra razılıq verilir. Evlənmək prosesinin ikinci mərhələsi elçilikdir. Elçiliyə elin, obanın ən hörmətli, sözü keçən bir adamı getməli idi. Qız üçün başlıq istənilməsi Oğuz elində qərarlaşmış bir nikah adətidir. Toy şənliyinin xüsusi bir mərhələsi "xınayaxdı"dır və bu proses qız evində gəlin-qızın ər evinə köçürülməsindən bir gün qabaq icra olunur. Üstündən min ildən artıq vaxt keçməsinə baxmayaraq Dədə Qorqud oğuzlarının bu sahədəki adət-ənənələri ilə müasir azərbaycanlıların, eləcə də Naxçıvandakı toy adət-ənənələri demək olar ki, eyniyyət təşkil edir. Xalqımız ailə məişəti ilə bağlı uzun əsrlər boyu qoruyub saxladığı adət-ənənələri bu müddət ərzində daim inkişaf etdirərək daha da təkmilləşdirmiş və mənəvi sərvət kimi bu günümüzədək gətirib çatdırmışdır.

"Kitabi-Dədə Qorqud" dastanında işlədilən bir sıra söz və ifadələrin bu gün də Naxçıvanda qismən dəyişilmiş formada işlədilən ifadələrin müqayisəsi dastanın xalqımıza məxsus olmasını bir daha təsdiq edir: "Ağzın qurusun, çoban! (Dilin,) çürüsün, çoban..." ("Dilin qurusun, ağzın yumulsun, Allah

ağzını yumsun"), "Dədə, oğlanmısan, qızmısan? Dədə deyir: Oğlanam!" ("Oğlanmısan, qızmısan"), "Şimdi yegidi atar-yıqar, sərər-pırtar, sümükləri xurd oldu" ("Vurub-yıxar, əzib pırtınağını çıxarar". Yaxud, "xurdu-xəşil olmuş" və başqaları.

Beləliklə, aydın olur ki, Naxçıvan diyarı "Kitabi-Dədə Qorqud" dastanında baş vermiş hadisələrin coğrafiyasında mühüm rol oynamış, dastandakı etnoqrafik materialların böyük əksəriyyəti Naxçıvan ərazisində yaşayan Azərbaycan türklərinin məişətində, mədəniyyətində, təsərrüfat həyatında, dini inanclarında, deyim tərzlərində və başqa sahələrdə işlədilən etnoqrafik materiallarla üst-üstə düşür.

İsmayıl HACIYEV
AMEA Naxçıvan Bölməsinin sədri, akademik

"KITABI-DADA GORGUD" EPOS AND ITS RELATION WITH NAKHCHIVAN

Epos creation is one of the verbal creation field in world literature which reflects the literary-figurative, socio-political thought of the nations in various historical time. "Kitabi-Dada Gorgud" epos created by Azerbaijan oghuz turks takes a peculiar place in world literature. "Kitabi-Dada Gorgud" epos which reflects the life, welfare, tradition of our people, the ancient culture monument, the most rare pearl of our literary and philosophical thought aroused a special interest. Therefor since the epos has been found out by German orientalist Friedrich Fon Deats in 1815 the interest to the epos has never decreased the prominent scientist of the world has been appeal it many times.


"Kitabi-Dada Gorgud" epos belong to Oghuz turks. The first reliable researcher of the epos V.V.Bartold notes that the epos has been created in Caucasus. The greatest Turkic scientist O.Sh.Gokyay the first publisher of the perfect edition of "Kitabi-Dada Gorgud" epos says about "Dresden" copies "Azerbaijani accent is specially felt in the epos". The prominent gorgud studies as Fuad Koprulu, Maharram Ergin, also the Russian turkologists as V.V.Bartold, V.M.Jirmunski, A.H.Kononov, A.Y.Yakubovski, the Azerbaijani scientists (H.Arasli, M.H.Tahmasib, A.Sultanli, A.Damirchizade, F.Zeynalov, S.Alizade, T.Hajiyev, S.Babayev, K.Valiyev, Sh.Jamshidov, E.Alibayzade, A.Farzali and etc.) affirms many time that the language features of "Kitabi-Dada Gorgud" epos, the geographical places where the events happened appeal to Azerbaijan more. At the meeting connected with the 1300th anniversary of "Kitabi-Dada Gorgud" epos, national leader, the greatest statesman Heydar Aliyev has said: **"Kitabi-Dada Gorgud" epos is belong to all Turkish world, its motherland is Azerbaijan and its master is Azerbaijan people and independent Azerbaijan state".**



